**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ XÜSUSİ ADLARIN TERMİNLƏŞMƏSİ

İxtisas: 5714.01 – Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik

Elm sahəsi: Filologiya

İddiaçı: **Könül Əhəd qızı Məmməd-zadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Fidan Afad qızı Qaraqurbanlı**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Valeh Bayram oğlu Nəsibov**

filologiya elmləri doktoru, dosent
**Kəmalə Avadır qızı Cəfərova**

filologiya üzrə fəlsəfə doktoru
**Şəfiqə Mütəllim qızı Məhərrəmova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: _______________ filologiya elmləri doktoru, professor
**Rəhilə Hüseyn qızı Quliyeva**

Dissertasiya şurasının elmi katibi: _______________ filologiya üzrə fəlsəfə doktoru
**Suad Arif qızı Əfəndiyeva**

Elmi seminarın sədri: _______________ filologiya elmləri doktoru, professor
**Tamilə Həsən qızı Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan və ingilis dilçiliyində bir çox mövzular qarşılıqlı şəkildə araşdırılmış və tədqiqata cəlb edilmişdir. Tədqiqat işinin aktual olmasına səbəb Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin xalqın dili və mədəniyyəti ilə sıx bağlı olmasıdır. Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş termin nümunələri qarşılıqlı şəkildə araşdırılmış, yaranma üsulları, oxşar və fərqli əlamətləri aşkara çıxarılmış, etimologiyaları, xüsusi adların növlərinə görə təsnifatı verilmişdir. Azərbaycan və ingilis dillərində onomastik terminlər bir arada araşdırılmışdır. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan dilinə son zamanlar hərb, diplomatiya, media, bank, maliyyə, kompüter sahəsində çox sayda terminlər daxil olmuşdur.

Tədqiqat işinin aktual olmasına səbəb Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin xalqın dili və mədəniyyəti ilə sıx bağlı olmasıdır. Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş termin nümunələri qarşılıqlı şəkildə araşdırılmış, etimologiyaları və yaranma üsulları verilmiş, xüsusi adların növlərinə görə təsnifatı aparılmışdır. Azərbaycan və ingilis dillərində onomastik terminlər bir arada araşdırılmışdır. Tədqiqat işində hər iki xalqın mədəniyyətində və dilində təsbit edilmiş sadə terminlər deyil, Azərbaycan və ingilis dillərində fərqli elm sahələrinə aid onomastik terminlər tədqiqat mövzusuna çevrilmişdir. Tədqiqat işinin aktuallığına səbəb onomastik terminlərin müxtəlif elm sahələrinə aid olması və onomastikanın bütün növləri üzrə nümunələrin verilməsidir. Mövzunun işlənilməsi mühüm ictimai, idraki və elmi əhəmiyyət kəsb edir.

Azərbaycan dilçiliyində onomastika elminin tədqiqi ilə bağlı XX və XXI əsrlərdə bir sıra dilçilərin, o cümlədən M.Çobanovun Azərbaycan antroponimiyasının əsasları, Tbilisi, 1983; T.Əhmədovun Azərbaycan toponimiyasında qədim türk elementləri. Türk dillərinin quruluşu və tarixi (elmi əsərlərin tematik məcmuəsi), Bakı, 1983; A.Qurbanovun Azərbaycan onomalogiyası məsələləri, I cild, Bakı, 1986; R.İsrafilova, Q.Məşədiyev, Q.Cəfərovun Azərbaycan dilinin onomastikası, Bakı, 1987; Q.Məşədiyevin

Zaqafqaziyanın Azərbaycan toponimləri, Bakı, 1990; T.Əhmədovun Azərbaycan toponimikasının əsasları, Bakı, 1991; A.Qurbanovun Poetik onomastika, Bakı, 1998; M.Adilov, A.Paşayevin Azərbaycan onomastikası, Bakı, 2005; A.Qurbanovun Azərbaycan dilinin onomalogiyası, I cild, Bakı, 2007; A.Qurbanovun Azərbaycan dilinin onomalogiyası, II cild, Bakı, 2007; N.Əsgərovun Azərbaycan dilində hidronimlər, Bakı, 2007; Ə.Mikayılovanın Onomastik vahidlərin üslubi imkanları, Bakı, 2008; A.Bağırovun Naxçıvan oykonimləri, Bakı, 2008; Ə.Tanrıverdinin Türk mənşəli Azərbaycan şəxs adlarının tarixi linqvistik tədqiqi, Bakı, 2012; A.Bağırovun Onomalogiya problemləri, I cild, Bakı, 2012; N.Xudiyevin Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı, Bakı, 2014; A.Paşayevin Azərbaycan təxəllüsşünaslığının əsasları, Bakı, 2016; İ.M.Kərimovanın Azərbaycan onomalogiyasının əsasları (Göyçay rayonunun toponimləri əsasında), Bakı, 2016; H.Hüseynovanın Bədii əsərlərdə onomastik vahidlərin rolu, Bakı, 2017; S.Sadıqovanın Müasir Azərbaycan dili: onomalogiya məsələləri, Bakı, 2017; M.Çobanovun Azərbaycan antroponimiyasının əsasları, Bakı, 2017; A.Paşayevin Türk mənşəli beynəlmiləl onomastik vahidlər, Bakı, 2017; F.A.Qurbanovanın Azərbaycan şəxs adları izahlı lüğəti, Bakı, 2019; F.H.Rzayevin Naxçıvan makrotoponimlərinin linqvistik xüsusiyyətləri, Naxçıvan, 2019; A.Qurbanovun Azərbaycan onomalogiyasının əsasları, I cild, Bakı, 2019; A.Qurbanovun Azərbaycan onomalogiyasının əsasları, II cild, Bakı, 2019; M.Adilov, A.Paşayevin Azərbaycan onomastikası, Bakı, 2019; F.Rzayevin Naxçıvan makrotoponimlərinin linqvistik xüsusiyyətləri, Bakı, 2019 dəyərli tədqiqat işləri elmə böyük töhfələr vermişdir.

Azərbaycan dilçiliyində XX əsrin 50-ci illərindən başlayaraq terminologiya sahəsində mühüm irəliləyişlər baş vermişdir. Belə ki, onilliklər ərzində müxtəlif elm sahələrində nümunə olaraq Dilçilik terminləri lüğəti, Bakı, 1957; Pedaqogika və psixologiya terminləri lüğəti, Bakı, 1958; Ə.Bədəlbəylinin Musiqi lüğəti, Bakı, 1959; Astronomiya terminləri lüğəti, Bakı, 1960; Hüquq terminləri lüğəti, Bakı, 1961; Zoologiya terminləri lüğəti, Bakı, 1961; Botanika terminləri, Bakı 1963; Kitabxana-biblioqrafiya terminləri lüğəti, Bakı, 1964; R.Yüzbaşovun Azərbaycan coğrafiya terminləri, Bakı,

1966; M.S.Abdullayevin Histologiya terminləri lüğəti, Bakı, 1970; M.Qasımovun Azərbaycan dili terminologiyasının əsasları, Bakı, 1973; Ədəbiyyatşünaslıq terminləri lüğəti, Bakı, 1978; Terminologiya məsələləri, Bakı, 1984; Fizika terminləri lüğəti, Bakı, 1986; Kimya terminləri lüğəti, Bakı, 1987; E.Q.Mehrəliyevin Xalq cografi terminlərinin izahlı lüğəti, Bakı, 1987; İ.M.Hüseynov, V.N.Hüseynovun Kənd təsərrüfatı texnikası terminləri lüğəti, Bakı, 1987; Terminologiya məsələləri, Bakı, 1987; M.İ.Adilov, Z.N.Verdiyevanın İzahlı dilçilik terminləri, Bakı, 1989; A.Qarayevin Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar, Bakı, 1989; Terminologiya məsələləri, Bakı, 1990; S.Xəlilovanın İnternasional terminlər, Bakı, 1991; Bazar iqtisadiyyatı terminləri lüğəti, Bakı, 1993; N.Paşayev, M.Allahverdiyevin İqtisadiyyat terminləri, Bakı, 1994; N.Seyidəliyevin Dini terminlər lüğəti, Bakı, 1996; N.Məmmədlinin Alınma terminlər, Bakı, 1997; Sayalı Sadıqovanın Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti, Bakı, 1998; Ə.Məhsətinin Azərbaycan kənd təsərrüfatı terminləri, Bakı, 1998; R.Əfəndi, K.Əliyevanın Azərbaycanın xalı və xalçaçılıq terminləri lüğəti, Bakı, 1998; T.Xəlilovanın Azərbaycan dilində inşaat terminləri, Bakı, 2000; İ.Bayramovun Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti, Bakı, 2000; Kino, televiziya, radio terminləri izahlı lüğəti, Bakı, 2002; S.A.Sadıqovanın Terminologiya məsələləri, Bakı, 2002; S.A.Sadıqovanın Azərbaycan dili terminologiyasının nəzəri problemləri, Bakı, 2002; S.A.Sadıqovanın Terminologiya məsələləri, Bakı, 2003; Z.Xasıyevin Azərbaycan dili dialekt və şivələrinin qərb qrupunda heyvandarlıq terminləri, Bakı, 2004; S.A.Sadıqovanın Terminologiya məsələləri, Bakı, 2004; Texniki terminlər lüğəti, Bakı, 2004; İngiliscə-rusca-türkcə-azərbaycanca hüquq terminləri lüğəti, Bakı, 2004; Q.Məşədiyev, N.Seyidəliyevin İzahlı onomastik terminlər lüğəti, Bakı, 2005; A.Ağayevin Maliyyə terminlər lüğəti, Bakı, 2005; L.Qurbanovanın Dil sistemində terminoloji leksika, Bakı, 2006; İ.Zeynalovun İzahlı tarix terminləri lüğəti, Bakı, 2006; Geologiya terminlərinin izahlı lüğəti, Bakı, 2006; S.İsrafilovanın Azərbaycan dilində informatika terminlərinin leksik-semantik təhlili, Bakı, 2006; T.Quliyevin Azərbaycan ədəbi dilində terminoloji

yeniləşmə prosesi, Bakı, 2006; N.Hüseynovanın Azərbaycan dilində termin yaradıcılığı prosesi, Bakı, 2008; R.Əliquliyev, S.Şükürlü, S.Kazımovanın Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər, Bakı, 2009; S.Hüseynovun İzahlı idman terminləri, Bakı, 2009; İzahlı statistika terminləri lüğəti, Bakı, 2010; Z.Salahov, İ.Qasımovun İngiliscə-azərbaycanca-rusca hərbi terminlər lüğəti, Bakı, 2010; S.Sadıqovanın Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi, Bakı, 2010; H.Qasımov, A.D.Hüseynovanın İqtisadi terminlər tezaurusu, Bakı, 2011; Energetika sahəsinin əsas terminlərinin izahlı terminoloji lüğəti, Bakı, 2011; M.Rəhimovun Kimya terminlərinin leksik-semantik təhlili (azərbaycan və ingilis dillərinin materialları əsasında), Bakı, 2014; A.Nəzərovanın Fəlsəfə terminlərinin izahlı lüğəti, Bakı, 2014; S.Alməmmədovanın İngiliscə-rusca-azərbaycanca kargüzarlıq terminləri lüğəti, Bakı, 2015; S.Sadıqovanın Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları, Bakı, 2015; E.Atakişiyevin Azərbaycan dilində dilçilik terminlərinin linqvistik təhlili, Bakı, 2015; Hərbi-tibbi terminlərin izahlı lügəti, Bakı, 2018; V.Abdullayeva-Nəbiyevanın Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı, Bakı, 2020; M.Camalov, E.Əzizova, A.Qafarovun İzahlı dini terminlər lüğəti, Bakı, 2020; M.Adilov, Z.Verdiyeva, F.Ağayevanın İzahlı dilçilik terminləri lüğəti, Bakı, 2020; S.Sadıqova, Ş.Həsənli-Qəribovanın Azərbaycanca-türkcə izahlı dilçilik terminləri lüğəti, Bakı, 2020 və s. kimi dilçilərin Azərbaycan dilinin terminologiyasına dair tədqiqat işləri ərsəyə gəlmiş, yeni terminlər araşdırılaraq tədqiqata cəlb edilmişdir.

Qeyd olunduğu kimi həm onomastik, həm də terminoloji məsələlər ayrı-ayrılıqda müxtəlif aspektlərdən araşdırılmışdır. Xüsusi adlardan düzəlmiş terminlər mövzusu isə əhatəli şəkildə araşdırılmamışdır. Bu səbəbdən hesab edirəm ki, bu mövzu çox aktualdır və geniş tərkibdə araşdırılmasına ehtiyac vardır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti xüsusi adlardan düzəlmiş terminlərdir. Tədqiqatın predmeti isə xüsusi adlar və onlardan düzəlmiş terminlərin linqvokulturoloji xüsusiyyətlərinin müəyyən edilməsi, etimoloji təhlili, müxtəlif elm sahələrinə aid terminlərin xüsusi adların növlərinə görə təsnifinin aparılmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan və ingilis terminologiyasında verilmiş xüsusi adlardan düzəlmiş terminlərin struktur və semantik xüsusiyyətlərini müqayisəli şəkildə öyrənməklə onların eyni, fərqli və ya oxşar cəhətlərini müəyyənləşdirmək, xüsusi adların növlərinə görə təsnifatlarının aparılmasıdır. Bu məqsədlə tədqiqat işində aşağıdakı vəzifələri yerinə yetirməyə çalışmışıq:

- Mədəniyyət anlayışını təhlil etmək, hər iki xalqda onun təzahür formalarının, insanların tarixi və mədəni inkişafının, keçdiyi mərhələlərin xüsusi adlardan düzəlmiş terminlərdə əksini tapmasını nümayiş etdirmək;
- Xüsusi adlardan düzəlmiş terminlərin analiz edilərək mədəni və tarixi faktların ortaya çıxarılmasında vacib amil olmasını diqqətə çatdırmaq;
- Dilin leksik tərkibindəki xüsusi adlardan bəhs edən onomastikanın dilçiliyin ən önəmli şöbəsi olmasını, cəmiyyətin ictimai-mədəni və sosial nailiyyətlərindən ən başlıcası olmasını araşdırmaq, bu mövzuda Azərbaycan və xarici dilçilərin fikirlərini və münasibətlərini aydınlaşdırmaq;
- Xüsusi adlardan düzəlmiş tarix, mifologiya, tibb, iqtisadiyyat, kompüter texnologiyası, incəsənət, coğrafiya, idman, musiqi, biologiya, zoologiya, fizika, kimya, maliyyə və mədəniyyət sahəsinə aid terminləri tədqiqata cəlb etmək;
- Xüsusi adlarla əlaqəsi olan terminlərin geniş tematik təhlilini aparmaq, onomastikanın bir çox növlərinə aid termin nümunələrini təsbit etmək və s.

**Tədqiqat metodları.** Dissertasiya üzərində işləyərkən təsviri, sistemli təhlil, koqnitiv, müqayisəli-qarşılaşdırma və müqayisəli-tarixi metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərlə bağlı aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

- Azərbaycan və ingilis dillərində dilin vacib ünsürlərindən olan xüsusi adlardan düzəlmiş terminlər elmin bütün sahələrini əhatə edir;

- Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlər hər iki xalqın mədəniyyətləri ilə səsləşir;

- Azərbaycan və ingilis dillərinin terminologiyası onomastik vahidlərin hər bir növündən (antroponim, teonim, mifoantroponim, makrotoponim, oykonim, oronim, hidronim, xrononim, kosmonim, etnonim, ktematonim, fitonim və s.) düzəlmiş terminlərlə zəngindir;

- Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin etimoloji xarakteristikası həmin terminlərin elmin müxtəlif sahələrinə: tarix, mifologiya, tibb, iqtisadiyyat, maliyyə, kompüter texnologiyası, coğrafiya, astronomiya, fizika, kimya, biologiya, zoologiya, musiqi, idman və mədəniyyət sahələrinə aid olmasını təcəssüm etdirir;

- Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin struktur təhlili onların həm leksik şəkilçilər, həm də söz birləşmələri formasında düzəlməsini əks etdirir;

- Azərbaycan və ingilis dillərində təsbit edilmiş xüsusi adlardan düzəlmiş terminlərin əksəriyyəti onların mənşəcə alınma olmasını əks etdirir;

- Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin əksəriyyəti mahiyyətcə onları ərsəyə gətirən şəxslərin birbaşa ad, soyad və təxəllüsləri ilə, ifadə etdikləri hadisələrin baş verdiyi böyük və kiçik məkanlarla, dağ və su sistemləri, kosmik anlayışlarla bağlı yaranmışdır;

- Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlər dilçiliyin terminologiya sahəsinin xüsusi bir hissəsi olmaqla dillərin inkişafını təmin edir;

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işi ilk dəfə Azərbaycan və ingilis onomastikasının semantik növlərinə görə hər iki dildə terminlərin düzəlməsində rolunu təşviq edir. Beləki, onomastikanın antroponim, teonim, mifoantroponim, makrotoponim, oykonim, oronim, hidronim, xrononim, kosmonim, etnonim, ktematonim, fitonim növlərindən düzəlmiş terminlər etimoloji cəhətdən, quruluşlarına görə, alınma və yerli olma xüsusiyyətlərinə görə, semantik mənalarına görə ilk dəfə təhlil edilmişdir. Bu proses kompleks şəkildə gedir, hər iki dildə müxtəlif elm sahələrinə aid onomastik terminlər tədqiqata cəlb edilir, onomastik vahidlərin bütün növlərinə aid terminlər qarşılıqlı verilməklə,

xüsusi adlardan düzəlmiş terminlər geniş tərkibdə araşdırılır. Tədqiqat işinin yeniliyi ondan ibarətdir ki, hər iki dildə bir çox sahələrə aid terminlər tədqiqata cəlb edilmişdir, onomastikanın bütün növlərindən düzəlmiş terminlərə geniş yer verilmişdir, hər iki dil qarşılıqlı və kompleks şəkildə tədqiqata cəlb edilmişdir. Tədqiqat işində verilən nümunə sayı kifayət qədər çoxdur və mövzunun oxucu tərəfindən dərindən mənimsənilməsinə əsas verir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəalarından ingilis dilini tədris edən universitetlərdə istifadə edilə bilər. Burada təqdim edilmiş faktlardan, nümunələrdən digər tədqiqat işlərində istifadə edilə bilər, o cümlədən ingilisdilli və azərbaycandilli insanlar bir-biri ilə canlı ünsiyyət zamanı praktiki faydalana bilərlər. Tədqiqat işində göstərilən məsələlərin mühüm bir hissəsindən gələcək elmi-tədqiqat işlərində istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları Azərbaycanda və xarici ölkələrdə keçirilən konfranslarda məruzə şəklində dinlənilmiş, tezislərində əks olunmuşdur. Mövzu ilə bağlı məqalələr elmi nəşrlərdə və mənbələrdə nəşr edilmişdir. Tədqiqat işinin əsas müddəaları və mövzunun əhatə etdiyi nəticələri tədqiqatçının beynəlxalq və respublika elmi məqalələrində, mövzuya aid konfranslarda etdiyi çıxışlarda göstərilmişdir. Tədqiqat işinin əsas müddəaları və mövzunun əhatə etdiyi nəticələri tədqiqatçının Müasir elmdə innovativ yanaşmalar beynəlxalq-elmi praktik konfransı, Moskva, 2019; Doktorantların və gənc tədqiqatçıların XXIII respublika elmi konfransı, Bakı, 2019; Filoloji elmlər innovativ tədqiqatlar kontekstində beynəlxalq elmi-praktik konfransı, Bakı, 2020; Humanitar elmlərin inkişaf strategiyası respublika elmi konfransı, Bakı, 2021; Gənc tədqiqatçıların VI beynəlxalq elmi konfransı, Bakı, 2022; Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi beynəlxalq elmi-praktik konfransı, Bakı, 2022; Qəzənfər Kazımov və Azərbaycan filologiyası respublika elmi konfransı, Bakı, 2022; 5-ci beynəlxalq elm və təhsildə innovativ texnologiyalar konfransı, Bakı, 2022; Vətən müharibəsi: 44 günlük zəfər salnaməsi respublika elmi-praktik konfransı, Bakı, 2022; Universitet elminin və təhsilinin müasir problemləri respublika elmi konfransı, Sumqayıt, 2022; Azərbaycan şərqşünaslığı şərq-qərb elmi-mədəni və ictimai-siyasi dialoqu

kontekstində beynəlxalq elmi konfransı, Bakı, 2022; Gənc tədqiqatçıların VI respublika elmi konfransı, Bakı, 2023 elmi konfranslarda etdiyi çıxışlarda göstərilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Slavyan Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş, üş fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 8 səhifə (14 965 işarə), I fəsil – 29 səhifə (56 602 işarə), II fəsil – 74 səhifə (135 750 işarə), III fəsil – 43 səhifə (63 935 işarə), Nəticə – 4 səhifə (6 668 işarə), Ədəbiyyat siyahısı – 12 səhifə (18 839 işarə), dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 277 920 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın birinci fəsli **"Xüsusi adlar Azərbaycan və ingilis linqvokulturologiyasında"** adlanır. Fəsil iki paraqrafdan ibarətdir. Birinci fəslin birinci paraqrafı **"Xüsusi adlardan düzəlmiş terminlərin linqvokulturoloji xüsusiyyətləri"** adlanır. İlk paraqrafda Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin xalqların mədəniyyətləri ilə bağlılığı araşdırılır. Məsələn, Qars müqaviləsi Azərbaycan tarixində Azərbaycan, Ermənistan, Gürcüstan, Türkiyə münasibətlərindən bəhs edir. Bu termin birbaşa tariximizin əlamətdar günü haqqında məlumat verir. Qazıbəyi pul vahidinin adı Şirvanşah Sultanı Məhəmməd Qazinin tarixdə rolu ilə, onun islahatları ilə bağlıdır. Quba xanlığı XVIII əsrdə Azərbaycanda

xanlıqlar dövründən bəhs edir. Azərbaycan tarixinin inkişaf mərhələsində xanlıqların əhəmiyyətli rolundan bəhs edən termindir. Eləcə də Şiraz qonaqları Kərim xan Zəndin və digər xanların başına gələn müsibətlərdən bəhs edir. Sadalanan terminlər tarixin fərqli mərhələlərini, onlara aid xüsusiyyətləri göz önünə gətirir.

Azərbaycan dilində milli terminlər ilə yanaşı beynəlxalq terminlər də işlənmə tezliyinə malikdirlər. Hipokrat andı belə terminlərdən olub həkimlərin mənəvi davranış normalarını, onların bu normalara əməl etmələri haqqında anddır. Hər bir həkim bu andı içməklə insanları sağaltmaq üçün daşıdıqları məsuliyyətin fərqində olduqlarını bildirirlər.

Bu səbəbdən tədqiqat işində verilən xüsusi adlardan düzəlmiş terminlərin xalqımızın milli-mədəni tarixi ilə bağlılığı diqqətə çatdırılır. Heydərizm termini Azərbaycan tarixi, onun qurucusunun adı ilə bağlı olan termindir. Bu termin özündə böyük ideologiyanın banisi, Azərbaycan dövlətinin, dilinin inkişafında danılmaz xidmətləri olan böyük şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.

O.S.Axmanovaya görə *çağdaş mədəniyyət müxtəlif mədəni dünyaların sərbəst yaşama tərzidir. Ölkələr və xalqlar arasında mədəni əlaqələrin genişlənməsi tendensiyası mədəniyyətlərarası ünsiyyət vasitəsilə həyata keçirilir*[1].

Terminlər xüsusilə də xüsusi adlardan düzəlmiş terminlər dilin üslubi imkanlarını artırır, dili zənginləşdirir. Nümunə üçün göstərdiyimiz Canaxır abidələri Xaçmazda Canaxır kəndinin, orada yaşayan insanların həyatı, yaşayışı, adət-ənənələri ilə bağlı olan termindir. Bu abidələr qədim kənd haqqında onun keçdiyi dövrlər haqqında tam təfsilatı ilə məlumat verir. Çovdar abidələri Daşkəsən bölgəsinin Çovdar kəndində tapılan arxeoloji abidələrdir ki, kəndin tarixi mədəniyyətini, onun son Tunc, erkən Dəmir dövrünə aid özəlliklərini xarakterizə edir.

Kaspiana Xəzər dənizinin sahilində eyni adlı tarixi vilayətdir ki, bu terminin lüğətə düşməsi Xəzər dənizinin qədim yaşayış sahələrindən biri olduğunu sübut edir. Muğan mədəniyyəti termini Muğan bölgəsinin mədəniyyətimizin formalaşdığı ilk mədəniyyət

---

[1] Ахманова, О.С. Словарь лингвистических терминов / О.С.Ахманова. - Москва: Книжный дом Либроком, -2004. -с.3-5

bölgələrindən olduğunu sübut edir. Məhz burada Tunc və erkən Dəmir dövrünə aid tapıntılar Azərbaycanın qədim mədəniyyətə malik yaşayış bölgələrindən biri olduğunu sübut edir. Nümunə olaraq göstərdiyimiz Çiçi xalçaları termini Qubanın Çiçi kəndinin tarixini, orada yaşayan sakinlərin xarakterik xüsusiyyətlərini öz ornamentləri, naxışları ilə səciyyələndirir. Azıxantrop Azərbaycanın ilk yaşayış məntəqələrindən biri olduğunu sübut edən, Azərbaycanın qədim tarixə malik olduğunu sübut edən terminlərdəndir.

Azərbaycan mədəniyyəti ümumbəşəri mədəniyyətin tərkib hissəsidir. O, milli çərçivədə məhdudlaşıb qalmır, başqa millətlərin mədəniyyətindən bəhrələnir və digər xalqların mədəniyyətinə təsir edərək onların formalaşmasında və inkişafında əvəzsiz xidmət göstərir.

Nokia məşhur mobil telefon istehsalçısının adı ilə bağlı olan termin kimi həm Azərbaycan, həm də ingilis dillərinin lüğət tərkibinə daxil olmuş beynəlxalq termindir.

Türinq testi kompüter sisteminin insan beyni ilə müqayisəsinin aparılması testi olub hər iki dillərin lüğətlərinə beynəlxalq termin kimi daxil olmuşdur.

İctimai-sosial dəyişikliklər, iqtisadi-siyasi inkişaf, ictimai fikirlərdə dəyişikliklər dillərin terminoloji bazasında müxtəlif dəyişmələrə səbəb olmuşdur. Müstəqillik qazandıqdan sonra, XX əsrin sonlarından başlayaraq Azərbaycan dilinin terminoloji sisteminə Avropa dillərindən, xüsusilə də ingilis dilindən alınma terminlər, yeni söz və ifadələr daxil olamağa başladı.

I fəslin ikinci paraqrafı **“Onomalogiya. Xüsusi adların nominasiyası”** adlanır. Xüsusi adların orijinallığı saxlanılmaqla tədqiqata cəlb edilməsi və qorunaraq növbəti nəsillərə ötürülməsi yolu ilə millətlər, şəxsiyyətlər, onların yaşadıqları məkan və yerlər haqqında geniş məlumatlar toplanmış olur. Xüsusi adlardan düzəlmiş terminlər elmin müxtəlif sahələrini əhatə edir. Onların əhatə dairəsi çox genişdir. Xüsusi adlardan düzəlmiş terminlərdə tarixi hadisələr, xalqların mifoloji dünyagörüşləri, dinə bəslədikləri münasibətləri və dini dünyagörüşləri, insanların sosial-iqtisadi və mədəni münasibətləri xarakterizə edilir. Xüsusi adlardan düzəlmiş terminlər xalqlar, millətlər haqqında araşdırmaçılara, tədqiqatçılara əsaslı məlumatlar verir. Xüsusi adlardan düzəlmiş terminlər tarixi öyrənmək üçün etibarlı mənbələrdir.

A.Qurbanov qeyd edir: *“Adlar, onların əlamət və xüsusiyyətlərinin tədqiqi müasir Azərbaycan dilçiliyində diqqəti ən çox cəlb edən vacib elmi-tədqiqat sahələrindəndir. Tarixi inkişafda baş verən hər bir yenilik yeni bir xüsusi adı, onomastik vahidi əmələ gətirir. Hər bir xüsusi adın kökü tarixdə baş verən hansısa bir hadisəyə söykənir. Hər bir onomastik vahidin altında tarixi faktlar yatır. Xüsusi adlar hadisələrin mahiyyətini, izlərini özündə əks etdirən tarixi faktlardır. Onlar tarix boyu baş verən hadisələrin səbəblərini, izlərini özlərində daşıyaraq yeni nəsillərə çatdırırlar”*[2].

Yaşadığımız həyatda ətrafımızda cəmləşən hər bir əşyanın, hər bir predmetin, hər bir varlığın, hər bir halın, hər bir hadisənin dildə səsləndirilən adı vardır. Əlimizlə toxunduğumuz, cismimizlə, ruhumuzla hiss etdiyimiz hər bir halın, vəziyyətin adı vardır. Bu hallar, hadisələr olmasa yaşadığımız həyat anlamsız, mənasız olar. İnsanlar bir-birilərinə adlarla xitab edirlər, əşyaları, obyektləri hadisələri adları ilə çağırırlar. Dildə bütün canlı və cansız varlıqların adları vardır. Adlanma olmasa ətrafımızda baş verənləri, olanları fərqləndirə, onlara səslənə bilmərik. Bu səbəbdən də yeni ərsəyə gələn, peyda olan hər şeyə, hər vasitəyə dildə ad verilir. Adlandırma vasitəsilə həyatda mövcud olan hər şey adlandırılır. Dil bütün bu dediklərimizi nəzərə alaraq fenomen hadisə kimi sayıla bilər.

Ə.Tanrıverdi qeyd edir: “*Antroponimlər intensivliyi ilə seçilir. Yəni onlar daha çox işlənir və saylarında artım müşahidə olunur, kütləvilik yaşanır. Apelyativlərin antroponim və toponimlərə çevrilmə səbəbləri, onların arxaikləşməsi, antroponim və toponimlərin fonetik, leksik-semantik və qrammatik xüsusiyyətləri, arxaikləşməsi tarixi-linqvistik müstəvidə təhlil edilib”*[3].

Tarixi araşdırmaq üçün tədqiqatçılar hətta onomastikaya üz tutmuşlar. Buna səbəb isə onomastikanın tarixin elementlərini özlərində canlandırmalarıdır. Xüsusi adlar tarixin fakt və sübutlarıdır. Tarix boyu zaman-zaman hər dövrün başlıca xüsusiyyətlərini özündə qoruyub saxlayan xüsusi adlar meydana gəlmişdir. Onlar özlərində

---

[2] Qurbanov, A. Azərbaycan onomalogiyasının əsasları / A.Qurbanov. -Bakı: İmak, c. 1. -2019. -s. 9-10

[3] Tanrıverdi, Ə. Azərbaycan dilinin tarixi qrammatikası / Ə.Tanrıverdi. -Bakı: Elm və təhsil, -2017. -s. 99

tarixiliyi, bədiiliyi, mənəvi keyfiyyətləri əks etdirir. Onomastika dilçilik qanunlarına görə deyil və həm də tarixi faktlar baxımından tədqiq edilir. O, həm dilçiliyin və həm də tarixin araşdırılan mövzusuna çevrilir, həm dilçilik və həm də tarix üçün vacib sahə kimi aktuallığını qoruyub saxlayır. Ona görə onomastika vacib, bəzən də müstəqil şöbə hesab edilir.

Həyatda fərqli insanlar, fərqli xarakterlər olduğu kimi fərqli, bir-birilərindən asılı olmayan adlar mövcuddur. Hər bir adın öz mənası, özəlliyi vardır. Onların fərqli olmasına səbəb müxtəlif insanlara, fərqli şəxsiyyətlərə xidmət etmələridir. Hər bir adda fərqli xarakterlər yaşayır. Həmin adlar insanlar haqqında fərqli təzahürlər meydana çıxarır. Adlar insanları, onlar haqqında xatirələri yaşadır. Adlar şəxsiyyətləri tərənnüm edir, şəxsiyyətlər isə adlarda yaşayır. Tarixi şəxsiyyətlərin adlarının tarixdə qalması, onların özlərindən sonrakı nəsillər tərəfindən yaddaşlarda qalması və xatırlanması dediklərimizi sübut edir. Məhz adları vasitəsilə onlar tarixin vacib faktlarına çevrilirlər. Bu səbəbdən ad insan həyatında cəmiyyətə xidmət edən vacib faktordur. Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, xüsusi adlardan düzəlmiş terminlər onları icad edən şəxslərin adı ilə bağlıdır. Terminlərin həmin şəxslərin adları ilə bağlı olması həmin terminləri daha yadda qalan edir və terminlər onları yaradan şəxsləri yaşadır. Terminologiyada onomastikanın bütün növlərinə dair terminlərə rast gəlinir. Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş frazeoloji ifadələr çoxluq təşkil edirlər.

M.Hüseynova görə frazeoloji birləşmələr bədii mətn parçalarında öz bədii kaloritli semantikasını saxlayır, bədii mətndə ifadə olunan frazalarda xarakterizə etdiyi obrazı və ya predmeti kontekst daxilində təsvir edir, həmin anlayışı bütün özəllikləri ilə canlandırır, ədəbi dilin fəlsəfi refleksiyasını, simvolik qatını ifadə edir[4].

Onomastika ilə bağlı materiallar xüsusi mədəni-tarixi qiymətə malikdir. Xüsusi adlar hər bir xalqda individualdır və hər bir xalqın ənənəsinə bağlı olan məsələdir. Onlar ideoloji və sosioloji komponentləri özlərində əks etdirirlər. Xüsusi adlar milli mədəniyyət ünsürləridir. Onomastika linqvokulturoloji əhəmiyyətə malik vahidlərdir.

---

[4] Hüseynov, M. Poetik frazeologiya / M.Hüseynov. -Bakı: Elm və təhsil, -2013. -s.388

*Bu fəsil çərçivəsində aparılan araşdırmalar, əldə edilən elmi ümumiləşdirmə və nəticələr iddiaçının bir sıra məqalə və konfrans materiallarında öz əksini tapmışdır*[5].

İkinci fəsil **“Köçürülmüş xüsusi adların etimoloji xarakteristikası”** adlanır. **“Tarix elmində xüsusi adlardan düzəlmiş terminlər”** adlanan ilk paraqrafda Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş tarix elminə aid terminlər təhlil edilmişdir.

Babək hərəkatı – Babəkin başçılığı ilə orta əsrlərdə Azərbaycan xalqının ərəb əsarəti və feodal zülmünə qarşı mübarizə apardığı antifeodal hərəkatdır. Azərbaycan dilində Babək xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[6].

---

[5] Məmmədzadə, K.Ə. Dil və mədəniyyət // -Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2020. № 7, -s.191-196; Xalq ədəbiyyatı əsasında xüsusi adlardan yaranan frazeoloji birləşmələr // -Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2020. № 9, -s.63-68; İngilis və Azərbaycan dillərində xüsusi adlardan düzəlmiş frazeoloji birləşmələr və tarixi terminlər / “Filoloji elmlər innovativ tədqiqatlar kontekstində” adlı Beynəlxalq elmi-praktik onlayn konfransın materialları, -Bakı: -2020, -s.174-176; Onomastik vahidlərin bədii ədəbiyyatda işlənməsi // -Bakı: BSU nəşriyyatı, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, -2019. № 6, -s.11-15; Dil və mədəniyyətin inkişafında terminlərin rolu / -Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Universitet elminin və təhsilinin müasir problemləri Respublika Elmi Konfrans materialları, -2022. -s.116-119; Onomastik vahidlərdən düzəlmiş terminlər / -Bakı: Azərbaycan Dövlət Pedaqoji universiteti Şamaxı filialı, 5-ci Beynəlxalq elm və təhsildə innovativ texnologiyalar konfransı, -2022. -s.281-283; Terminlər // -Bakı: Elm və təhsil nəşriyyat-poliqrafiya, Linqvistika problemləri Beynəlxalq Elmi jurnalı, -2023. Cild 4, № 1, -s.271-276; Terminology problems of the Azerbaijani language / -Bakı: Azərbaycan Universiteti, Gənc tədqiqatçıların VI Respublika Elmi Konfransı, -2023. -s.171-173; The relationship between language and society / -Bakı: Bakı Dövlət Universiteti, Azerbaijani oriental studies in the context of east-west scientific-cultural and socio-political dialogue, -2022. -s.124-126; The role of terms in the development of language and culture / -Bakı: Azərbaycan Respublikası Müdafiə Nazirliyi Milli Müdafiə Universiteti, Vətən müharibəsi: 44 günlük zəfər salnaməsi Respublika Elmi-praktik Konfrans materialları, -2022. -s.252-255; Использование специальных имен в качестве терминов / -Москва: Инновационные подходы в современной науке, -2019. № 15 (51), -с. 61-65; К вопросу о развитии собственных имен в ономологии // - Киев: Вчены записки Таврического национального университета им. В.И.Вернадского. Серия “Филология”. Социальные коммуникации, -2020. Том 31(70), -с. 51-56

[6] Zeynalov, İ.X. İzahlı tarix terminləri lüğəti / İ.X.Zeynalov. -Bakı: Azərnəşr, -2006. -s.28

Bakı tətilləri – Bakıda XX əsrdə baş vermiş siyasi tətillərdir. Azərbaycan dilində Bakı xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[7].

Blankizm – XIX əsr fransız inqilabçısı Lui Oqüst Blankinin insanların kapitalizmə etiraz etmədən onu süquta uğratması nəzəriyyəsidir. Azərbaycan dilində Blank xüsusi adına izm şəkilçisini artırmaqla düzəlmiş, avropa mənşəli, alınma termindir[8].

Kemalism (Kamalizm) – Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün demokratiyanın qurulmasına aid islahatlarıdır. İngilis dilində Kemal xüsusi adına ism sufiksinin artırılması ilə düzələn, türk mənşəli, alınma termindir[9].

Marxian (Marksist) – Karl Marksla əlaqəli şeylərə istinad etmək üçün istifadə olunan termindir. İngilis dilində Marx xüsusi adına ian sufiksinin artırılması ilə düzəlmiş, avropa mənşəli, alınma termindir[10].

Rachmanism (Rahmanizm) – İngiltərədə Polşa əsilli mülk sahibi Pitr Rahmanın kirayəçilərini istismar etməsidir. İngilis dilində Rachman xüsusi adına ism sufiksinin artırılması ilə düzəlmiş, milli termindir[11].

Rebecca riots (Rebekka qiyamları) – Yerli fermerlər və kənd təsərrüfatı işçilərinin ədalətsiz vergilərə qarşı etiraz aksiyalarıdır. İngilis dilində Rebecca xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[12].

**“Mifologiya və tibb elmində xüsusi adlardan düzəlmiş terminlər”** adlanan ikinci paraqrafda mifologiya və tibb elminə aid terminlər təhlil edilmişdir.

---

[7] Zeynalov, İ.X. İzahlı tarix terminləri lüğəti / İ.X.Zeynalov. -Bakı: Azərnəşr, -2006. -s.28

[8] Zeynalov, İ.X. İzahlı tarix terminləri lüğəti / İ.X.Zeynalov. -Bakı: Azərnəşr, -2006. -s.35

[9] Chris C. Macmillan dictionary of historical terms: (2 ed.) / C.Chris. -London: Macmillan Press, -1990. -p.191

[10] Chris C. Macmillan dictionary of historical terms: (2 ed.) / C.Chris. -London: Macmillan Press, -1990. -p.220

[11] Chris C. Macmillan dictionary of historical terms: (2 ed.) / C.Chris. -London: Macmillan Press, -1990. -p.276

[12] Chris C. Macmillan dictionary of historical terms: (2 ed.) / C.Chris. -London: Macmillan Press, -1990. -p.277

Troyan kompüter proqramı – Yunan ədəbiyyatında “Troya atı”ndan götürülmüşdür. Azərbaycan dilində sadə quruluşlu, yunan mənşəli, alınma termindir[13].

Fobiya – Tibb elmində fobiya qorxu tanrısı Fobosdan əmələ gəlmişdir. Azərbaycan dilində sadə quruluşlu, yunan mənşəli, alınma termindir[14].

Daltonizm – İngilis fiziki Con Daltonun aşkara çıxardığı rəng duyğularının pozulması halıdır. Azərbaycan dilində Dalton adına izm şəkilçisinin artırılması ilə düzəlmiş, alınma termindir[15].

Alexander disease (İskəndər xəstəliyi) – Ən çox uşaqlarda rast gəlinən mərkəzi sinir sisteminin orta beyinlərinə və beyinciklərinə təsir edən nadir, ölümcül, sinir sistemi pozğunluğu xəstəliyidir. İngilis dilində Alexander xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, yunan mənşəli, alınma termindir[16].

**“İqtisadiyyat, maliyyə sahəsi və kompüter texnologiyasında xüsusi adlardan düzəlmiş terminlər”** adlanan üçüncü paraqrafda iqtisadiyyat, maliyyə sahəsi və kompüter texnologiyasına aid terminlər təhlil edilmişdir.

Amerika fond birjası – ABŞ-ın Nyu-York fond birjasından sonra ikinci böyük fond birjasıdır. Azərbaycan dilində Amerika xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[17].

Beyker planı – 1985-ci ildə ABŞ-ın Reyqan administrasiyasının xəzinə naziri Beykerin üçüncü dünya ölkələrinin xarici borc problemini həll etmək üçün həyata keçirdiyi plandır. Azərbaycan dilində Beyker xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[18].

---

[13] Qocayev, Ə. Tarixi anlayış və terminlərin izahlı lüğəti / Ə.Qocayev, Ş.Quliyeva, S.Əliyeva. -Bakı: Maarif nəşriyyatı, -2003. -s.6

[14] Qədim yunan mifologiyası: [Electronic resource] / -İyul 30, 2021. URL:https://az.wikipedia.org/wiki/Q%C9%99dim_yunan_mifologiyas%C4%B1

[15] Əmirov, Ş. Ümumi və tibbi fizika terminləri (ingilis, azərbaycan, rusca) / Ş.Əmirov. -Bakı: Millim nəşriyyatı, -2008. -s.40

[16] Browse the medical dictionary: [Electronic resource] / URL: https://www.merriam-webster.com/browse/medical/a/13

[17] Mövsümov, C. İqtisadi lüğət / C.Mövsümov. -Bakı: -2012. -s.19

[18] Mövsümov, C. İqtisadi lüğət / C.Mövsümov. -Bakı: -2012. -s.47

Basel agreement (Bazel razılaşması) – İsveçrənin Bazel şəhərində Bazel Bank Nəzarəti Komitəsi tərəfindən yaradılmışdır. İngilis dilində Basel xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, avropa mənşəli, alınma termindir[19].

Borda count (Borda seçki üsulu) – Yan Çarlz Bordanın Fransa Elmlər Akademiyasına keçirilən seçkilərdə yaratdığı seçki üsuludur. İngilis dilində Borda xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[20].

Marşall planı – ABŞ-ın dövlət katibi Corc Marşal tərəfindən hazırlanan II Dünya müharibəsindən sonra Avropa ölkələrinin bərpasına Amerikanın kömək proqramını nəzərdə tutan plandır. Azərbaycan dilində Marşal xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir.[21]

Brady plan (Bredi planı) – Nikolas Bredinin Meksikanın xarici borcunun yenidən hazırlanması planıdır. İngilis dilində Brady xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[22].

Adobe – Con Vornokun evinin yaxınlığından axan Adob Krik çayının şərəfinə adlandırdığı proqram təminatıdır. Azərbaycan dilində sadə quruluşlu, alınma termindir[23].

Qalileo naviqasiya sistemi – İtalyan fizik Qalileo Qalileyin şərəfinə adlandırılan Avropa peyk naviqasiya sistemidir. Azərbaycan dilində Qalileo xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, avropa mənşəli, alınma termindir[24].

---

[19] Black, J. A dictionary of Economics (3 ed.) / J.Black, N.Hashimzade, G.Myles. -Oxford: Oxford University Press, -2009. -p.9

[20] Black, J. A dictionary of Economics (3 ed.) / J.Black, N.Hashimzade, G.Myles. -Oxford: Oxford University Press, -2009. -p.23

[21] Mövsümov, C. İqtisadi lüğət / C.Mövsümov. -Bakı: -2012. -s.238

[22] Black, J. A dictionary of Economics (3 ed.) / J.Black, N.Hashimzade, G.Myles. -Oxford: Oxford University Press , -2009. -p.13

[23] Məmmədli, R. İngiliscə-Azərbaycanca izahlı kompüter terminləri lüğəti / R.Məmmədli. -Bakı: Kitab klubu nəşriyyatı, -2014. -s.26

[24] Məmmədli, R. İngiliscə-Azərbaycanca izahlı kompüter terminləri lüğəti / R.Məmmədli. -Bakı: Kitab klubu nəşriyyatı, -2014. -s.350

Nokia (Nokia) – Finlandiyanın Nokia şəhərində məşhur mobil telefon istehsalçısıdır. İngilis dilində sadə quruluşlu, avropa mənşəli, alınma termindir[25].

**"Coğrafiya, astronomiya, fizika, kimya, biologiya və zoologiya elmində xüsusi adlardan düzəlmiş terminlər"** adlanan dördüncü paraqrafda coğrafiya, astronomiya, fizika, kimya, biologiya və zoologiya elminə aid terminlər təhlil edilmişdir.

Kepler qanunları – Almaniyalı astronom İohan Keplerin icad etdiyi planetlərin Günəş ətrafında hərəkətinə aid üç qanundur. Azərbaycan dilində Kepler xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, avropa mənşəli, alınma termindir[26].

Qrinviç meridianı – Londonda Qrinviç rəsədxanasının adı ilə bağlı olan meridiandır. Azərbaycan dilində Qrinviç xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[27].

Alonso model (Alonso modeli) – Amerikalı iqtisadçı Vilyam Alonsonun şəhər ərazi və torpaqlarının kirayəsi ilə bağlı təklifidir. İngilis dilində Alonso xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, avropa mənşəli, alınma termindir[28].

Arximed qanunu – Yunan alimi Arximedin kəşf etdiyi mayeyə batırılmış cismin çəkisi haqqında qanundur. Azərbaycan dilində Arximed xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, yunan mənşəli, alınma termindir[29].

Henri induktivlik vahidi – ABŞ alimi Cozef Henrinin kəşf etdiyi induktivlik vahididir. Azərbaycan dilində II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[30].

---

[25] Məmmədli, R. İngiliscə-Azərbaycanca izahlı kompüter terminləri lüğəti / R.Məmmədli. -Bakı: Kitab klubu nəşriyyatı, -2014. -s.281

[26] Əmirov, Ş. Ümumi və tibbi fizika terminləri (ingilis, azərbaycan, rusca) / Ş.Əmirov. -Bakı: Millim nəşriyyatı, -2008. -s.77

[27] Məmmədli, R. İngiliscə-Azərbaycanca izahlı kompüter terminləri lüğəti / R.Məmmədli. -Bakı: Kitab klubu nəşriyyatı, -2014. -s.369

[28] Webster, M. Geographical dictionary (3 ed.) / M.Websters. -Massachusetts: Springfield, -2001. -p.35

[29] Əmirov, Ş. Ümumi və tibbi fizika terminləri (ingilis, azərbaycan, rusca) / Ş.Əmirov. -Bakı: Millim nəşriyyatı, -2008. -s.19

[30] Əmirov, Ş. Ümumi və tibbi fizika terminləri (ingilis, azərbaycan, rusca) / Ş.Əmirov. -Bakı: Millim nəşriyyatı, -2008. -s.67

Dizel – Alman mühəndis Rudolf Dizelin kəşf etdiyi yanacaqdır. Azərbaycan dilində sadə quruluşlu, avropa mənşəli, alınma termindir[31].

Charles's law (Şarl qanunu) – İngilis kimyaçı Jak Şarlın kəşf etdiyi ideal qazın həcmi qanunudur. İngilis dilində Charles xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[32].

Qarabağ atı – Azərbaycanın Qarabağ zonasında yayılan at növləridir. Qarabağ xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[33].

Qafqaz tısbağası – Gündüzlər və xüsusən isti havalarda fəal olan, bitkilər, soxulcan və ilbizlərlə qidalanan, ən çox Azərbaycanda yaşayan tısbağa növüdür. Qafqaz xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[34].

African lungfish (Afrika balıq növü) – Afrika şirin sularında yaşayan balıq növüdür. İngilis dilində Africa xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[35].

South American tapir (Cənubi Amerika tapiri) – Cənubi Amerikada sağ qalan iri, yerli quru məməlisidir. İngilis dilində America xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[36].

**“Musiqi, idman və mədəniyyət sahəsində xüsusi adlardan düzəlmiş terminlər”** adlanan beşinci paraqrafda musiqi, idman, mədəniyyət sahəsinə aid terminlər təhlil edilmişdir.

---

31 Fizika terminləri: [Electronic resource] / -Yanvar 24, 2021. URL:https://az.wikipedia.org/wiki/Fiziki_terminl%C9%99r

32 Glossary of chemistry terms: [Electronic resource] / -October 12, 2021. URL:https://en.wikipedia.org/wiki/Glossary_of_chemistry_terms

33 Məmmədli, T. Biologiya terminlərinin izahlı lüğəti / T.Məmmədli. -Bakı: MBM mətbəəsi, -2007. -s.105

34 Məmmədli, T. Biologiya terminlərinin izahlı lüğəti / T.Məmmədli. -Bakı: MBM mətbəəsi, -2007. -s.103

35 Allaby, M. A dictionary of zoology (3 ed.) / M.Allaby. -Oxford: Oxford University Press, -2009. -p.8

36 Allaby, M. A dictionary of zoology (3 ed.) / M.Allaby. -Oxford: Oxford University Press, -2009. -p.425

Aksel – Norveç fiquristi Aksel Paulsenin adı ilə bağlı hoppanma formasıdır. Azərbaycan dilində sadə quruluşlu, avropa mənşəli, alınma termindir[37].

Alpinizm – Alp dağlarının zirvələrinə qalxma üzrə idman növüdür. Azərbaycan dilində Alp xüsusi adına izm şəkilçisinin artırılması ilə düzəlmiş, avropa mənşəli, alınma termindir[38].

Koroğlu – Azərbaycan xalq musiqisində qəhrəmanlığı vəsf edən rəqs musiqisidir. Azərbaycan dilində mürəkkəb quruluşlu milli termindir[39].

Mirzə Hüseyn segahı – XVIII əsrdə Azərbaycan xanəndəsi Mirzə Hüseyn tərəfindən ifa olunan segahdır. Azərbaycan dilində Mirzə Hüseyn xüsusi adının II növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[40].

Şleyxerin dilçilik görüşləri – Almaniyalı dilçi Avqust Şleyxerin naturalizm baxışlarına əsaslanan dilçilik görüşləridir. Azərbaycan dilində Şleyxer xüsusi adının III növ təyini söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, avropa mənşəli, alınma termindir[41].

Alexandrianism (Aleksandrianizm) – İskəndəriyyədə yunan yazıçılarının üslubu və nəzəriyyəsidir. İngilis dilində Alexandria xüsusi adına n və ism sufikslərinin artırılması ilə düzəlmiş, yunan mənşəli, alınma termindir[42].

America’s cup (Amerika kuboku) – Amerikada futbol yarışları zamanı qalib komandaya təqdim edilən kubokdur. İngilis dilində

---

[37] Hüseynov, S.S. İzahlı idman terminləri / S.S.Hüseynov. -Bakı: Yazıçı nəşriyyatı, -2009. -s.18

[38] Hüseynov, S.S. İzahlı idman terminləri / S.S.Hüseynov. -Bakı: Yazıçı nəşriyyatı, -2009. -s.20

[39] Bədəlbəyli, Ə. İzahlı monoqrafik musiqi lüğəti / Ə.Bədəlbəyli. -Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, -1969. -s.75

[40] Bədəlbəyli, Ə. İzahlı monoqrafik musiqi lüğəti / Ə.Bədəlbəyli. -Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, -1969. -s.88

[41] Dilçilik məktəbləri: [Electronic resource] / -Fevral 26, 2021. URL:https://az.wikipedia.org/wiki/Dil%C3%A7ilik_m%C9%99kt%C9%99bl%C9%99ri

[42] Baldick, C. Literary terms / C.Baldick. -New York: Oxford University Press, -2001. -p.4

America xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[43].

Chicago school (Çikaqo məktəbi) – Göydələn memarlığının inkişafına aid məktəbdir. İngilis dilində Chicago xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, alınma termindir[44].

Liverpool poets (Liverpul şairləri) – Liverpul şəhərində yazıb-yaradan şairlərdir. İngilis dilində Liverpool xüsusi adının xüsusi isim+isim söz birləşməsinin birinci tərəfi kimi işləndiyi, milli termindir[45].

*Bu fəsil çərçivəsində aparılan təhlil və dəyərləndirmələr, bu əsnada əldə olunan elmi ümumiləşdirmə və nəticələr iddiaçının bir sıra məqalə və konfrans materiallarında əks olunmuşdur[46].*

Tədqiqat işinin üçüncü fəsli **"Terminlərin tematik təsnifatı"** adlanır. Bu fəsildə Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlərin tematik təsnifatı verilmişdir.

Üçüncü fəslin **"Müxtəlif elm sahələrinə aid antroponim, teonim və mifoantroponimlərdən düzəlmiş terminlər"** adlanan ilk paraqrafında antroponim, teonim və mifoantroponimlərdən düzəlmiş terminlərin təsnifatı aparılmışdır.

Azərbaycan dilində Abalakov testi Vitali Mixayloviç Abalakovun soyadı ilə bağlı, Amper fransız fiziki Andre Mari

---

[43] Svinks, U. Sport lexis terms explanatory dictionary in English / U.Svinks. -Riga: LSPA, -2011. -p.31

[44] Baldick, C. Literary terms / C.Baldick. -New York: Oxford University Press, -2001. -p.38

[45] Baldick, C. Literary terms / C.Baldick. -New York: Oxford University Press, -2001. -p.142

[46] Məmmədzadə, K.Ə. Xüsusi adlarla əlaqəsi olan tarixi terminlər // -Bakı: BSU nəşriyyatı, Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, -2019. № 2, -s.44-48; İqtisadiyyat sahəsi ilə linqvistikanı birləşdirən linqvistik terminlər / -Bakı: Bakı Biznes Universiteti, Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi mövzusunda Beynəlxalq Elmi-praktik Konfransı, -2022. -s.378-381; İqtisadiyyat və maliyyə sahəsində xüsusi adlardan düzəlmiş terminlər / -Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi Adına Dilçilik İnstitutu, Qəzənfər Kazımov və Azərbaycan filologiyası Respublika Elmi Konfransı, -2022. -s.318-323; Mifonimlər bədii ədəbiyyatda və dilçilikdə / Humanitar elmlərin inkişaf strategiyası Respublika Elmi Konfransının materialları, -Bakı: - 2021, -s. 223-226

Amperin soyadı ilə bağlı, Anqstrem İsveç fiziki Conas Anqstremin soyadı ilə bağlı, Daltonizm ingilis fiziki Con Daltonun soyadı ilə bağlı, Darlinqton sxemi Sidney Darlinqtonun soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində isə Bacillus Calmette-Guerin vaccine (Basillus Kalmet-Querin vaksini) Parisdə Amerika alimləri Kamilla Querin və Albert Kalmetin soyadları ilə bağlı, Bacon rebellion (Bekon üsyanı) ingilis immiqrant Nataniel Bekonun soyadı ilə bağlı, Baconian theory (Bekon nəzəriyyəsi) Frensis Bekonun soyadı ilə bağlı, Baconists (Bekonistlər) Liberal partiyasından olan Nataniel Bekonun soyadı ilə bağlı, Balmer series (Balmer seriyaları) Cohan Balmerin soyadı ilə bağlı, Cherenkov radiation (Çerenkov şüalanması) Pavel Çerenkovun soyadı ilə bağlı, Darwinism (Darvinizm) Çarlz Darvinin soyadı ilə bağlı olan antroponimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Abbası İran və Cənubi Qafqazda Səfəvi Şahı I Abbasın adı ilə bağlı, Abbasilər Məhəmməd peyğəmbərin əmisi Abbasın adı ilə bağlı, Aksel Norveç fiquristi Aksel Paulsenin adı ilə bağlı, Darik Əhəməni padşahı I Daranın adı ilə bağlı olan antroponimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Casio (Keyzo) yapon Keyzo Tadomun adı ilə bağlı, Homeric culture (Homer mədəniyyəti) Homerin adı ilə bağlı, Socratic irony (Sokrat ironiyası) Sokratın adı ilə bağlı, Victorian period (Viktoriya dövrü) Böyük Britaniya kraliçası I Viktoriyanın adı ilə bağlı olan antroponimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Brahma hinduizm tərəfdarlarının sitayiş etdiyi allah Brahma ilə bağlı, Dionis bayramları Qədim Yunanıstanda bitki və şərabçılıq allahı Dionis ilə bağlı, Fobiya tibb elmində geniş istifadə edilən qorxu tanrısı Fobos ilə bağlı, Fosfor elementi kimya elmində ən parlaq element kimi səhər günəşi tanrısı Fosforos ilə bağlı, Hipnoz tibb sahəsində tez-tez istifadə olunan yuxu tanrısı Hipnoz ilə bağlı, Elektra kompleksi tibb sahəsində tez-tez istifadə olunan Elektra ilə bağlı olan teonimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Aeolian harp (Külək harpı) qədim yunan külək tanrısı Aeolus ilə bağlı, Aphrodisiac (Afrodizyak) yunan allahı Afrodita ilə bağlı, Aurora australis (Aurora qütb parıltısı) qədim

yunan mifologiyasında Avrora ilə bağlı, Chaos (Xaos) kainatın yaranmasından əvvəlki boşluğu ifadə edən tanrı Xaos ilə bağlı, Europe (Avropa) yunan mifindəki tanrıların kralı Zevs ilə bağlı, Hermaphroditism (Hermafroditizm) xəbər tanrısı Hermes ilə bağlı, Morphin (Morfin) yuxu və xəyal tanrısı Morfey ilə bağlı, Ocean (Okean) yunan dəniz allahı Okeanos ilə bağlı, Plutocracy (Plutokratiya) sərvət tanrısı Pluton ilə bağlı, Volcano (Vulkan) maqma püskürən tanrı Volkanos ilə bağlı olan teonimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Narcissism (Narsisizm) Narsis ilə bağlı olan mifoantroponimdən düzəlmiş termin nümunəsidir.

Zefir, Vulkan, Tayfun, Plutokratiya, Okean, Narsisizm, Morfin, Mentor, Letargiya, Hipnoz, Exo, Xronologiya, Xaos, Kerberos, Aurora qütb parıltısı, Troyan proqramı kimi terminlər həm Azərbaycan, həm də ingilis dillərinin terminologiyasında eynilik təşkil edirlər.

Üçüncü fəslin **"Müxtəlif elm sahələrinə aid makrotoponim və oykonimin növlərindən düzəlmiş terminlər"** adlanan ikinci paraqrafında makrotoponim və oykonimin növlərindən düzəlmiş terminlərin təsnifatı aparılmışdır.

Azərbaycan dilində Amerika fond birjası Amerika qitəsi ilə bağlı, Antarktik hava və Antarktika qurşağı Antarktida materiki ilə bağlı, Asiya antisiklonu Asiya qitəsi ilə bağlı, Azərbaycan güləşməsi və Azərbaycan havası Azərbaycan ölkəsi ilə bağlı, İtaliya çəyirtkəsi İtaliya ölkəsi ilə bağlı, Belorusiya güləşməsi Belorusiya ölkəsi ilə bağlı, Cənubi Afrika depressiyası Afrika qitəsi ilə bağlı, Cənubi Amerika minimumu Cənubi Amerika materiki ilə bağlı olan makrotoponimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində African lungfish (Afrika balıq növü), African sleeping sickness (Afrika yuxu xəstəliyi), African swine fever virus (Afrika donuz qızdırması virusu) Afrika materiki ilə bağlı, Byzantine age (Bizans dövrü) Bizans İmperiyası ilə bağlı olan makrotoponimdən düzəlmiş termin nümunələridir.

Amerika futbolu, Amerika həndbolu, Çin təbabəti, Avropa çempionatı, ABŞ defisiti və digər makrotoponimlərdən düzəlmiş terminlər Azərbaycan və ingilis dillərində eynilik təşkil edirlər.

Azərbaycan dilində Bakı tətilləri Bakı şəhəri ilə bağlı, Bərdə faciəsi Bərdə şəhəri ilə bağlı, Bişkek protokolu Bişkek şəhəri ilə bağlı olan astionimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Basel agreement (Bazel razılaşması) İsveçrənin Bazel şəhəri ilə bağlı, Cambridge equation (Kembric tənliyi) Kembric şəhəri ilə bağlı, Liverpool poets (Liverpul şairləri) Liverpul şəhəri ilə bağlı, Manchester school (Mançester məktəbi) Mançester şəhəri ilə bağlı olan astionimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Borodino vuruşması Moskvadan 124 km. qərbdə yerləşən Borodino kəndi ilə bağlı, Canaxır abidəsi Azərbaycanın Xaçmaz bölgəsində Canaxır kəndi ilə bağlı, Çiçi xalça kompozisiyası Qubanın Çiçi kəndi ilə bağlı olan komonimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Greenwich Village (Qrinviç kəndi) Nyu-York şəhərinin Qrinviç kəndi ilə bağlı olan komonimdən düzəlmiş termin nümunəsidir.

Azərbaycan dilində Kanossaya getmək Kanossa qəsri ilə bağlı, Verden qəssabxanası Verden qalası ilə bağlı olan aqoronimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində House of Habsburg (Habsburq evi) İsveçrədə inşa edilmiş Habsburq qalası ilə bağlı olan aqoronimdən düzəlmiş termin nümunəsidir.

Albion, Lakonika danışıq tərzi, Marafon vuruşması, Qrinviç meridianı, Mustiye mədəniyyəti, Troya müharibəsi oykonimlərdən düzəlmiş terminlər Azərbaycan və ingilis dillərində eynilik təşkil edirlər.

Üçüncü fəslin **“Müxtəlif elm sahələrinə aid oronim, hidronim, xrononim, kosmonim, etnonim, ktematonim və fitonimlərdən düzəlmiş terminlər”** adlanan üçüncü paraqrafında oronim, hidronim, xrononim, kosmonim, etnonim, ktematonim və fitonimlərdən düzəlmiş terminlərin təsnifatı aparılmışdır.

Azərbaycan dilində Alp qırışıqlığı, Alp qurşağı və Alpinizm Alp dağları ilə bağlı, Qafqaz xurması və Qafqaz tısbağası isə Qafqaz dağları ilə bağlı olan oronimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Babəkər təpəliyi Babəkin adı ilə bağlı olan antropooronimdən düzəlmiş termin nümunəsidir.

İngilis dilində Alleghanian orogeny (Allegen aroqaniyası) Allegen dağları ilə bağlı, Alpine racing (Alp yarışı), Alpine skiing (Alp xizək sürmə yarışı) Alp dağları ilə bağlı olan oronimdən düzəlmiş termin nümunələridir.

Nümunələrdən gördüyümüz kimi Azərbaycan və ingilis dillərində Alp dağları, Qafqaz dağları ilə bağlı terminlər eynilik təşkil edirlər.

Azərbaycan dilində Cənubi Atlantik antisiklonu Atlantik okeanı ilə bağlı, Cənubi Hind okeanı antisiklonu Hind okeanı ilə bağlı, Cənubi Sakit okean antisiklonu Sakit okean ilə bağlı olan okeanonimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Atlantic Period (Atlantik dövrü) Atlantik okeanı ilə bağlı olan okeanonimdən düzəlmiş termin nümunəsidir.

Azərbaycan dilində Egey mədəniyyəti Qədim Yunanıstanda Egey dənizi ilə bağlı, Kaspiana Azərbaycanda Xəzər dənizi ilə bağlı, Aralıq dənizi iqlimi Aralıq dənizi ilə bağlı olan pelaqonimdən düzəlmiş termin nümunələridir.

İngilis dilində Adobe (Adobe) proqram təminatı Adobe Creek çayı ilə bağlı olan potamonimdən, Alaska current (Alyaska axını) isə Alyaskanın cənub sahilləri bağlı olan topohidronimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Çıldır vuruşması Çıldır gölü ilə bağlı olan limnonimdən düzəlmiş termin nümunəsidir.

Aralıq dənizi, Qvineya axını, Kaliforniya axını, Braziliya axını, Atlantik dövrü, Alyaska axını, Cənubi Atlantik antisiklonu terminlərinə hər iki dillərin terminologiyasında təsadüf edilir.

Azərbaycan dilində Dekabristlər dekabr ayı ilə bağlı, Oktyabristlər isə oktyabr ayı ilə bağlı olan xrononimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Günəş enerjisi və Günəş fəallığı Günəş səma cismi ilə bağlı olan kosmonimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Əfşarı Əfşar sülaləsi ilə bağlı, Kazaçok isə Ukraynada kazak xalq adı ilə bağlı olan etnonimdən düzəlmiş termin nümunələridir.

Azərbaycan dilində Kərəmi Aşıq yaradıcılığında “Əsli və Kərəm” məhəbbət dastanı ilə bağlı olan ktematonimdən, Qızçiçəyi

çarxı isə Qızçiçəyi bitkisi ilə bağlı olan fitonimdən düzəlmiş termin nümunələridir.

Günəş enerjisi, Günəş fəallığı, Günəş məşəli, Dekabristlər, Oktyabristlər və digər terminlər Azərbaycan və ingilis dillərinin terminologiyasında üst-üstə düşürlər.

Tədqiqat işində xrononimlərdən düzəlmiş 20 Yanvar, Dekabristlər, Oktyabristlər və digər terminlərdə verilmiş ay adları ayrılıqda heç bir məna kəsb etmirlər, onları mənalı edən həmin aylarda baş verən xronoloji hadisələrdir.

Şəki üsyanları, Şirvan üsyanları terminlərində Şəki və Şirvan bölgə adları ayrılıqda heç bir məna kəsb etmirlər, onlar əhali çıxışları ilə bağlı tarixə düşmüşlər.

Heyger sayğacı, Kelvin, Marşal planı və bu qəbildən olan çox sayda terminlərdə adları çəkilən şəxslər siravi insanlar olsa da onları məşhurlaşdıran ixtiraları idi.

Pifaqorçular, Kamalçılar terminlərinin nümunəsində deyə bilərik ki, məşhur şəxslər öz ideologiyaları ətrafında böyük kütləlləri birləşdirirdi.

*Bu fəsil çərçivəsində aparılan təhlil və dəyərləndirmələr, bu əsnada əldə olunan elmi ümumiləşdirmə və nəticələr iddiaçının bir sıra məqalə və konfrans materiallarında əks olunmuşdur*[47].

Biz apardığımız “Azərbaycan və ingilis dillərində xüsusi adların terminləşməsi” adlı tədqiqat işinin **Nəticə** hissəsində aşağıdakı nəticələri əldə etmiş oluruq:

1. Tədqiqat işinin I fəslinin I paraqrafında Azərbaycan və ingilis dillərində onomastik terminlərin mədəniyyət sosial anlayışı ilə bağlılığı təhlil edilmişdir. Xüsusi adlardan düzəlmiş terminlər mədəni faktları araşdırmaqda dilçilikdə özəl yer tutur. Cəmiyyətlərarası mədəni mübadilələrin inkişafı dilin lüğət tərkibinin zənginləşməsinə gətirib çıxarmışdır. Xüsusi adlardan düzəlmiş

[47] Məmmədzadə, K.Ə. Bədii ədəbiyyatda xüsusi adların terminləşməsi / Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının materialları, -Bakı: -2019, -c.2. -s.82-84; Azərbaycan və ingilis dillərində xüsusi adların antroponim növündən düzəlmiş terminlər / -Bakı: Bakı Mühəndislik Universiteti, VI international scientific conference of young researchers, -2022. -s.1149-1152; Xüsusi adlarla əlaqəli terminlərin tematik təsnifatı // -Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2021. № 3, -s.133-140

terminlərin hər biri özündə mədəni prosesləri, hər dövrə aid hadisələri, faktları əks etdirir. Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlər xalqların tarixini, onların keçdiyi inkişaf yollarını, mədəni inkişaflarını, irslərini göz önünə gətirir. Məsələn, Ağbil türbələri, Canaxır abidələri Azərbaycanın qədim mədəniyyət ocağı olduğunu sübut edir. Bu terminlərlə tanış olan oxucular maariflənir, Azərbaycanın mədəni irsi nümunələri ilə tanış olur. Azıxantrop Azərbaycan torpaqlarının hələ qədimdən insan əcdadlarının ilk yaşayış məskəni olduğunu sübut edən termindir. Sadalanan terminlər tarixi faktlara söykənən terminlərdir.

İngilis dilində Viktoriya, Tüdor dövrləri Böyük Britaniyada kraliça I Viktoriyanın və Tüdor ailəsinin hakimiyyət illərini əhatə edən dövrlərdir. Qrinviç kəndi Nyu-York şəhərində rəssamların, yazıçıların, musiqiçilərin yığışdığı ərazi olduğunu sübut edən termindir. Tədqiqat işində mədəniyyətin bir çox sahələri ilə bağlı terminlər verilmişdir.

2. Tədqiqat işinin I fəslinin II paraqrafında onomastik vahidlərin növləri və terminləşmiş onomastik frazeoloji ifadələr araşdırılmışdır. Allah adamı, Allah vergisi, Glory to Allah, God's lawyer, Pir qələbəsi, Varfolomey gecəsi frazeoloji ifadələrində Allah və God, Pir, Varfolomey xüsusi adları terminləşmişdir.

3. Tədqiqat işinin II və III fəsilləri praktiki mahiyyət daşıyır. II fəsildə tarixi şəxsiyyət Heydər Əliyev, Babək, imperator Napoleon Bonapart, şovinistçi general Ceorci Ernest Bulanje, hərəkatçı Kondarti Bulavinlə bağlı tarixi terminlər, Çarlz Dou, Karl Linaburq, Maykl Maduel, Kern, Lima şəhəri ilə bağlı iqtisadi terminlər, Nobel mükafatçısı Pyer Küri, fizik Con Daltonla bağlı fizika və kimya elminə aid terminlər, xizəkçi Denis Byelman, gimnast Eberhard Ginger, konki sürücüsü Verner Ritberger, Avropa qitəsi ilə bağlı idman sahəsinə aid terminlər, "Əsli və Kərəm" məhəbbət dastanı, Ləzgi xalqı, Koroğlu ilə bağlı musiqi terminləri, dilçi Avqust Şleyxer, Homerlə bağlı mədəniyyət sahəsinə aid, Pan qorxu tanrısı, Fobos müharibə tanrısı, Hipnoz yuxu tanrısı, Afrodita ilə bağlı mifoloji və s. terminlər tədqiqata cəlb edilmişdir.

4. Tədqiqat işində qeyd edilən terminlər, icad edilən qaydalar, qanunlar, kəşf edilən modellər, effektlər, prinsiplər, vahidlər,

xəstəliklər, reflekslər, sinir sistemləri xəstəlikləri nəticə olaraq onları kəşf edən şəxslərlə bağlıdır.

5. Azərbaycan və ingilis dillərində sadə, I, II, III növ təyini söz birləşməsi, abreviatura, xüsusi isim+isim, ian, ism, çi, çu, luq, ie, izm, lar, lər və s. şəkilçilər vasitəsilə xüsusi adlardan düzəlmiş terminlər tədqiqat predmetinə çevrilmişdir.

6. Tədqiqat işinin III fəslində Amper, Baluyev, Beyker, Blank, Bofort, Bonapart, Bor, Boykot soyadları, Mərvan, Məzdək, Osman adları, Bədəvilər tayfa adı, Əfqan etnik xalq adı, Brahma, Dionis, Fobos teonim və mifoantroponimləri, Amerika, Asiya, Azərbaycan, Dağıstan, İtaliya makrotoponimləri, Bakı, Çikaqo, Kazan, Leninqrad, Moskva, Qars, Bişkek, Oksford astionimləri, Canaxır, Çiçi, Çovdar, Daşaltı komonimləri, Kanossa, Verden aqoronimləri, Alp, Babək, Qafqaz oronimləri, Hind okeanı, Aralıq dənizi hidronimləri ilə bağlı xüsusi adlardan düzəlmiş terminlərin təsnifatı verilmişdir.

7. Azərbaycan və ingilis dillərində tədqiqata cəlb edilən xüsusi adlardan düzəlmiş terminlərin etimologiyası, mənşəyi, ümumi sayı, onlardan neçəsinin milli və alınma olmaları göstərilmişdir. Göstərdiyimiz nümunələrə əsaslanaraq deyə bilərik ki, Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş terminlər mənşəcə əsasən avropa mənşəlidirlər. Terminlər arasında yunan, rus və ərəb mənşəli terminlər də vardır. Hər iki dildə alınma terminlərin sayı kifayət qədər çoxdur.

8. Azərbaycan dilində Qarabağ atı, Azıxantrop, Muğan mədəniyyəti, Qarabağ şikəstəsi və digər xüsusi adlardan düzəlmiş terminlər dünya mədəniyyətinə, dünya dillərinə daxil olmuşdur.

9. Azərbaycan və ingilis dillərində Panik, Fobiya, Fosfor, Xaos, Exo, Xronologiya, Erotika, Zefir, Avropa, Hipnoz, Alpinizm, Volt, Dizel, Nokio, Mentor kimi terminlər eyni mənalı və eyni yazılışlı terminlərdir. Günəş enerjisi, Günəş fəallığı, Günəş məşəli, Günəş küləyi kimi terminlər eyni anlayışları bildirsələr də fərqli dillərdə müxtəlif adlarla, müxtəlif orfoqrafik yazılışlarla ifadə olunurlar.

10. Azərbaycan və ingilis dillərində üst-üstə düşən, eynilik təşkil edən Blankizm, Bonapartizm, Drakon qanunları, Hippokrat andı, Hitlerizm, Qrinviç meridianı, Leninizm, Marafon vuruşması,

Troya müharibəsi, Fobiya, Hipnoz, Xronologiya, Nokia, Farenheyt şkalası, Alpinizm, Aralıq dəniz pəhrizi, Şleyxer ağacı, Arximed qanunu, Boyl qanunu, Kulon qanunu, Nyuton qanunu, Mendeleyev cədvəli, Kelvin, Rentgen şüaları və s. xüsusi adlardan düzəlmiş beynəlxalq terminlər tədqiq edilmişdir.

11. Azərbaycan və ingilis dillərində bəzi xüsusi adlardan düzəlmiş terminlər var ki, onlar yalnız məhdud çərçivədə deyil, gündəlik nitqdə işlənən ümumişlək terminlərdir. Okean, Daltonizm, Morfin, Hippokrat andı, Xronologiya, Fobiya, Panik, Hipnoz, Exo, Avropa, Erotika, Vulkan, Marafon qaçışı, Xaos, Rentgen şüaları, Tayfun, Drakon qanunları və digər terminlər Azərbaycan və ingilis dillərində xüsusi adlardan düzəlmiş ümumişlək terminlərdir. Bu terminləri elm nümayəndələri ilə yanaşı cəmiyyətin sadə üzvləri gündəlik həyatda istifadə edirlər.

12. Tədqiqat işi məlumat almaq, yeni biliklər qazanmaq üçün nümunələrlə zəngindir. Bu nöqteyi nəzərdən tədqiqat işi olduqca aktual və maraqlıdır.

**Tədqiqat işinin əsas məzmunu aşağıda çap olunmuş tezis və məqalələrdə öz əksini tapmışdır**.

1. Использование специальных имен в качестве терминов / -Москва: Инновационные подходы в современной науке, -2019. № 15 (51), -с. 61-65.
2. Bədii ədəbiyyatda xüsusi adların terminləşməsi / Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının Materialları, -Bakı: Memarlıq və İnşaat Universiteti, -2019, -c.2. -s. 82-84.
3. Xüsusi adlarla əlaqəsi olan tarixi terminlər // -Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (dil və ədəbiyyat seriyası), -2019. № 2, -s. 44-48.
4. Onomastik vahidlərin bədii ədəbiyyatda işlənməsi // -Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, -2019. № 6, -s. 11-15.
5. Dil və mədəniyyət // -Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2020. № 7, -s. 191-196.

6. Xalq ədəbiyyatı əsasında xüsusi adlardan yaranan frazeoloji birləşmələr // -Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2020. № 9, -s. 63-68.
7. İngilis və Azərbaycan dillərində xüsusi adlardan düzəlmiş frazeoloji birləşmələr və tarixi terminlər / "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində" Beynəlxalq Elmi-praktik Onlayn Konfransı, -Bakı: Bakı Slavyan Universiteti, -2020, -s. 174-176.
8. К вопросу о развитии собственных имен в ономологии // -Киев: Вчены записки Таврического национального университета им. В.И.Вернадского. Серия "Филология. Социальные коммуникации", -2020. Том 31(70), -с. 51-56.
9. Xüsusi adlarla əlaqəli terminlərin tematik təsnifatı // -Bakı: Elm və təhsil, Filologiya məsələləri, -2021. № 3, -s. 133-140.
10. Mifonimlər bədii ədəbiyyatda və dilçilikdə / Humanitar elmlərin inkişaf strategiyası Respublika Elmi Konfransının Materialları, -Bakı: "Gəncİlk" təhsil şirkəti, -2021, -s. 223-226.
11. Azərbaycan və ingilis dillərində xüsusi adların antroponim növündən düzəlmiş terminlər / VI international scientific conference of young researchers, -Bakı: Bakı Mühəndislik Universiteti, -2022. s.1149-1152.
12. İqtisadiyyat sahəsi ilə linqvistikanı birləşdirən linqvistik terminlər / Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi mövzusunda Beynəlxalq Elmi-praktik Konfransı, -Bakı: Bakı Biznes Universiteti, -2022. -s.378-381.
13. İqtisadiyyat və maliyyə sahəsində xüsusi adlardan düzəlmiş terminlər / Qəzənfər Kazımov və Azərbaycan filologiyası Respublika Elmi Konfransı, -Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi Adına Dilçilik İnstitutu, -2022. -s. 318-323.
14. Onomastik vahidlərdən düzəlmiş terminlər / 5-ci Beynəlxalq elm və təhsildə innovativ texnologiyalar konfransı, -Bakı: Azərbaycan Dövlət Pedaqoji universiteti Şamaxı filialı, -2022. -s.281-283.
15. The role of terms in the development of language and culture / Vətən müharibəsi: 44 günlük zəfər salnaməsi Respublika Elmi-praktik Konfrans Materialları, -Bakı: Milli Müdafiə Universiteti, -2022. -s.252-255.

16. Dil və mədəniyyətin inkişafında terminlərin rolu / Universitet elminin və təhsilinin müasir problemləri Respublika Elmi Konfrans materialları, -Sumqayıt: Sumqayıt Dövlət Universiteti, -2022. -s.116-119.
17. The relationship between language and society / Azerbaijani oriental studies in the context of east-west scientific-cultural and socio-political dialogue, -Bakı: Bakı Dövlət Universiteti, -2022. -s.124-126.
18. Terminlər // -Bakı: Elm və təhsil, Linqvistika problemləri Beynəlxalq Elmi Jurnalı, -2023. Cild 4, № 1, -s.271-276.
19. Terminology problems of the Azerbaijani language / Gənc tədqiqatçıların VI Respublika Elmi Konfransı, -Bakı: Azərbaycan Universiteti, -2023. -s.171-173.

Dissertasiyanın müdafiəsi 12 sentyabr 2024-cü il tarixində saat 15:00 Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, S.Rüstəm 33, Bakı Slavyan Universiteti

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "02" iyul 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.05.2024

Kağızın formatı: A5

Həcm: 45912 işarə

Tiraj: 100 nüsxə